Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2026, **s. 64-71**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2026, **c. 64-71**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2026, **p. 64-71**

UOT 78.087.681

M.Məmmədova
pedaqogika üzrə fəlsəfə doktoru
Bakı Humanitar Kolleci
AZ 1124, Bakı ş., C.Xəndan küç., 121
e-mail: m.mamedova51@gmail.com

XORLA OXUMA PROSESİNDƏ UŞAQLARIN TƏLİM VƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİNİN MƏZMUNU

https://doi.org/10.30546/170899876.101.01.2026.64

Açar sözlər: *uşaq xor ifası, musiqi təlim və tərbiyəsinin aktiv formaları, müxtəlif üslub və janr*

Məqalədə pedaqoq-xormeysterin təlim və tərbiyə vəzifələrinin rolu nəzərdən keçirilmiş və onun uşaq xor kollektivi ilə işinin əhəmiyyəti əsaslandırılmışdır. Müəllif qeyd edir ki, müəllim həmçinin uşaqlara xorla oxumağı öyrədərkən musiqi və tədris məsələlərini həll etməlidir.

Xor fəaliyyəti uşaqların musiqi qabiliyyətlərinin, estetik zövqünün və yaradıcı təfəkküründün formalaşmasında mühüm rol oynayır. Tədqiqatda xor məşğələlərinin şagirdlərin intizamlı, məsuliyyətli və kollektivdə işləmək bacarığına müsbət təsiri göstərilir. Eyni zamanda, düzgün nəfəsalma, ritm hissi, səsin inkişafı və musiqi eşitmə qabiliyyətinin formalaşdırılması kimi vacib pedaqoji məsələlər təhlil olunur. Məqalədə müəllimin peşəkarlığının və metodik hazırlığının uşaqların musiqi tərbiyəsində xüsusi əhəmiyyət daşıdığı vurğulanır. Müasir pedaqoji yanaşmalar əsasında xor dərslərinin uşaqların mənəvi inkişafına, milli-mədəni dəyərlərin mənimsənilməsinə və ünsiyyət bacarıqlarının inkişafına xidmət etdiyi nəticəsinə gəlinir. Tədqiqat xor sənətinin təhsil prosesində əhəmiyyətini müəyyənləşdirir.

М.Мамедова

СОДЕРЖАНИЕ ВОПРОСОВ ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ ДЕТЕЙ В ПРОЦЕССЕ ХОРОВОГО ПЕНИЯ

Ключевые слова: *детское хоровое пение, активные формы музыкального обучения, различные стили и жанры*

В статье рассмотрена роль задач обучения педагога-хормейстера и

обоснована важность его работы с детским хоровым коллективом. Автор отмечает, что преподаватель обучает детей хоровому пению, должен решать задачи музыки и обучения.

Хоровая деятельность играет важную роль в формировании музыкальных способностей, эстетического вкуса и творческого мышления детей. Рассматривается влияние хоровых занятий на развитие дисциплины, ответственности и навыков коллективной работы. Анализируются педагогические аспекты формирования правильного дыхания, чувства ритма, развития голоса и музыкального слуха. Подчёркивается значение профессионализма и методической подготовки педагога в музыкальном воспитании детей. На основе современных педагогических подходов делается вывод о том, что занятия хоровым пением способствуют духовному развитию учащихся, усвоению национально-культурных ценностей и развитию коммуникативных навыков. Исследование определяет значение хорового искусства в образовательном процессе.

M.Mammadova

THE CONTENT OF BRINGING UP AND EDUCATIONAL ISSUES OF CHILDREN IN THE PROCESS OF CHORAL READING

Keywords: *children chorall reading, active forms of musical training and education, different style and genre*

The role of bringing up and education functions of pedagogue-choirmaster is looked through in the article and its significance in work with children's chorus collective and grounded. The author notes that, master also must solve music-education issues while teaching children the choral reading.

Choral activity plays an important role in the formation of children’s musical abilities, aesthetic taste, and creative thinking. The study highlights the positive influence of choir lessons on discipline, responsibility, and teamwork skills. Important pedagogical issues such as correct breathing, sense of rhythm, voice development, and musical hearing are analyzed. The article emphasizes the importance of the teacher’s professionalism and methodological preparation in children’s musical education. Based on modern pedagogical approaches, it is concluded that choir classes contribute to students’ spiritual development, the assimilation of national and cultural values, and the improvement of communication skills. The research determines the significance of choral art in the educational process.

Musiqinin insanlara, xüsusi ilə də uşaqlara ən önəmli təsiredici formalarından biri də xor ifaçıhğıdır. Musiqi onlar üçün əhval-ruhiyyənin,

hissin və bədii tələbatın əks etdirilməsində təbii və əlverişli vasitədir. Hələ B.V.Asafyev xorla oxumanı musiqi-ifaçılıq qabiliyyətlərinin inkişafının ən təbii vasitələrindən biri kimi xarakterizə etmişdir: "Şəxsən mən hesab edirəm ki, xorun mövcud olması mütləqdir".

Təcrübəli musiqiçi pedaqoqlar, xor kollektivlərinin rəhbərləri qeyd edir ki, uşaqların xor kollektivində iştirakı yüksək emosional və intellektual aktivliyin aşkar olunmasıdır və bu, gələcəkdə uşağın şəxsi və mənəvi inkişafı üçün vacibdir. Xorla oxuma uşaqların yaradıcı ifadələrinin aktiv inkişafına, bədii-obrazlı düşüncələrinə, fantaziyalarına, təəssüratlarına müsbət təsiredici vasitədir.

Keçmiş nəslin musiqiçiləri, həmçinin görkəmli Azərbaycan musiqiçi-maarifçiləri: Ü.Hacıbəyli, M.Maqomayev, Bül-Bül, A.Bədəlbəyli və bir çox başqaları musiqi tərbiyəsinin ümumi və hərtərəfli əhəmiyyətini və vacibliyini dəfələrlə qeyd etmişlər. Dünya musiqi incəsənətinin parlaq təbliğatçıları olaraq, onlar xalqın daxili mənəvi mədəniyyətinin qurulmasında musiqinin əhəmiyyətini dərindən dərk edirdi. "Biz mədəni ölkələrin təkcə musiqidə yox, başqa sahələrdə də qazandıqlarını əldə etməliyik... Xalq Vaqner, Bethoven, Çaykovski kimi Avropa dahilərinin yaradıcılıqlarının gözəlliklərini dadmalıdır. Musiqi maarifçiliyi sahəsində bizim işimiz bu əsərləri anlamaq istiqamətinə yönəlməlidir. Lakin ən əvvəl milli musiqimizi qoruyub saxlamalıyıq" [2, s. 34].

Mənəvi mədəniyyətin bu mühüm amilinin formalaşmasına XX əsrin görkəmli bəstəkarı Q.Qarayev diqqət yetirmişdi: "Mən hesab edirəm ki, uşaq, əlifba ilə yanaşı spektrin əsas rəngləri kimi, qammanın əsas rəngləri ilə də tanış olmalıdır. Bu. onu daha güclü, daha zəngin və hərtərəfli edəcək. Sonralar o. başa düşəcək ki. rənglərin ahəngliyi ona koloritin, səslərin ahəngliyi isə harmoniyanı, melodiyanı hiss etməsini verir. Qoy sabah o, nə musiqiçi, nə də rəssam olsun: siz uşaq üçün şer oxuduqda onun gələcək sənətini müəyyən etmirsiniz ki! Qoy uşaqlar sadəcə olaraq musiqini dinləsinlər. İnanın, bu, onlar üçün çox böyük, tanımadıqları bir aləmi açacaq və onların çoxu bu aləmə təkcə özləri üçün yox, bütün insanlar üçün səadət və sevinc axtarmağa yollanacaqlar. Ümumiyyətlə, musiqi uşaqların tərbiyəsində əvəzedilməz köməkçidir, o, təkcə istedadlı insanların həyatında mühüm yer tutmalı deyil. Musiqiyə bütün insanların ehtiyacı var".

Müəllim-xormeysterin musiqi-tərbiyəvi, bədii-maarif işi vacibdir, çünki şəxsiyyətin hərtərəfli və harmonik inkişafının formalaşmasını həyata keçirir. Xor fəaliyyəti prosesində musiqi tərbiyəsinin əsas məqsədi – musiqi-estetik şüurun, bədii zövqün, idealların formalaşmasıdır; başqa sözlə desək, gözəllik qanunu ilə dünyanı quruluş cəhətdən zərif və mürəkkəb qavrama və qiymətləndirmə bacarığının formalaşmasıdır. Musiqi tərbiyəsi, məktəblilərin ümumi estetik tərbiyəsinin bir hissəsi kimi, əsərlərin və musiqi incəsənətinin

növlərini başa düşmək, hiss etmək və qiymətləndirmək qabiliyyətində özünü göstərir.

"Nəğmə - müəyyən dərəcədə üslublaşdırılmış nitqdir". Buna görə də uşaq üçün, o, musiqidə özünü ifadə etmək üçün ən təbii və sadə vasitədir" [4]. Uşaq xor kollektivi ilə daimi iş təcrübəli və istedadlı müəllim-xormeyster üçün müxtəlif mahnı və xor əsərlərini öyrətmə prosesi ilə kifayətlənmir. Bu iş uşaqların musiqi təliminin mükəmməl prosesini təmsil edir və müəllim onları öyrədərək, tərbiyələndirir və inkişaf etdirir.

Xor oxuma uşaqların dünya musiqi mədəniyyəti nailiyyətlərinə yiyələnməsi üçün böyük imkanlar yaradır və bu imkanlar nəinki mahnı repertuarının öyrənilməsi, həmçinin uşağın ümumi musiqi tərbiyəsinin, təhsilin və inkişafın qarşılıqlı əlaqəsində həyata keçirilir. Bununla yanaşı bu məsələlərin vəhdətinin əhəmiyyətinə baxmayaraq, bu gün uşaq xor kollektivlərinin iş metodikasında məktəblilərin aldığı biliklər tərbiyə və inkişaf səviyyəsi ilə tən gəlmir. Müxtəlif xor kollektivi rəhbərlərinin çoxillik iş təcrübəsinə əsaslanaraq və başqalarının fəaliyyətini müşahidə etdikdə, ümumi çatışmazlıqlar aşkar olunur və bu da müəyyən dərəcədə onların ifaçılıq səviyyəsinə və keyfiyyətinə təsir edir. Beləliklə, başqa ifaçı-musiqiçilər kimi, pedaqoq-xormeyster də öz xor kollektivini tərbiyə və inkişaf edərək, onun təhsilini artırır, bununla da dinləyicinin estetik tərbiyənin yüksək və sosial əhəmiyyəti olan funksiyasını yerinə yetirir.

Pedaqoq-xormeysterin üsulunu və zövqünü xarakterizə edən mahnılar, xor əsərləri, vokal çalışmaları, xor kollektivinin ən əsas məsələlərindən biri olan ifaçılıq repertuarını təşkil edir. Məhz nəğmə repertuarı uşaq xor kollektivinin yaradıcı, ifaçılıq, bədii görüşünü və potensial imkanlarını müəyyən edir. Buna görə repertuarın axtarışı, seçimi və tərtibi pedaqoq-xormeyster üçün işin ən mürəkkəb və məsuliyyətli mərhələsidir.

Ən əvvəl repertuar seçimi uşaqları ətraflarında səslənən primitiv mahnılardan yayındıran, mürəkkəb olmayan, lakin maraqh. bədii məzmunlu mahnılara əsaslanır. Sonralar ifaçılıq repertuara xor ədəbiyyatından ən yaxşı nümunələri, klassik əsərləri geniş daxil etmək olar.

Uşaq xor repertuarına müxtəlif üslublu janr və istiqamətdə olan musiqi daxil olmalıdır: xalq, klassik, estrada, hərbi-vətənpərvər, əsasən, gündəlik həyatı işıqlandıran, cəmiyyətin estetik zövqünü və yüksək bədii tələbatını formalaşdıran musiqi. Xorun məşğələlərinin bütün prosesinin təşkili və quruluşu didaktik cəhətdən vacibdir. Mahnı ya da xor əsəri üzərində iş bütün pedaqoji prosesin əsas məqamıdır. Xor kollektivinin ifaçılıq uğuru əsasən müəllim-xormeysterin mahnı üzərində işindən asılıdır. Təcrübə göstərir ki, xorun rəhbəri metodiki cəhətdən mahnı repertuarının düzgün və məqsədəuyğun öyrədilməsinə böyük əhəmiyyət verməlidir. Tədricən, vokal-xor çalışmalarını mənimsəyərək, mahnı repertuarını öyrənərək, xorun iştirakçıları özlərini vahid

musiqi- yaradıcı kollektiv kimi hiss etməyə başlayır, bu da müəllim-xormeysterin vacib təşkiletmə məsələsidir.

Xorun rəhbəri, hər hansı mahnını öyrədərkən uşaqların diqqətini mahnının musiqisinə və mətninə yönəldir və bununla yanaşı, bilavasitə onları musiqi savadının əsasları ilə tanış edir. Musiqi savadı məşğələləri canlı və-anlaşıqlı formada keçirilirsə, uşaqların musiqiyə marağı artır və onlar mahnını eşitmə vasitəsi ilə yox, notla oxuyur. Bu proses ehtiyatla həyata keçirilməlidir ki, musiqi nəzəri biliklərin həcmi xor ifasının yaradıcı, cəlbedici, məqsədəuyğun istiqamətini və məzmununu sıxmasın və ona üstünlük verməsin. Didaktik cəhətdən vacibdir ki, ifa prosesində konkret musiqi biliklərinin konkret praktiki nümunələrlə sıx əlaqəsi olsun, yayındırıcı xarakter daşımasın, biliklər uşaqlar üçün "musiqini kəşf etmək" kimi qəbul olunsun və bunlar hamısı bir əsas məqsədə – xorda oxumaq arzu və bacarığına xidmət etməlidir.

Yaxşı olar ki, mahnının öyrənmə prosesi musiqini və mətni bölməmək şərti ilə başlasın. Ən əvvəl mahnını melodik ibarələrə bölərək öyrənmək lazımdır, musiqi və sözlər ayrılmaz olmalıdır. Melodik quruluşun həcmi mətnin mürəkkəbliyi ilə müəyyən olunur, buna görə də xormeyster hər bir konkret halda öyrənilən musiqi parçasını planlaşdırmalıdır.

Adətən, o, mətnin perioduna, musiqi frazasına, cümləyə uyğun gəlir, buna görə də xormeyster, uşaqlara müəyyən musiqi parçasını öyrədəndə, mütləq onları mahnının və ya xor əsərinin musiqi formasının quruluşu ilə tanış edir. "Musiqini mənimsəmə müddətini dilin təlimi ilə müqayisə etmək olar, uşaqlar musiqi dilində danışmağı öyrənir, yəni öz şəxsi təcrübəsində musiqi dilinin ritmik və intonasiya xüsusiyyətlərini mənimsəyərək, oxuyurlar" [4].

Musiqi-nəzəri və ifaçılıq biliklərdə, bacarıqlarda və vərdişlərdə ümumiləşdirilmiş xorla oxumanın bütün təlim məsələləri bütövlüklə müəllim-xormeysterin fəaliyyətində əsas olan musiqini sevmək və başa düşmək məsələsinə yönəlməlidir. Uşaqlar üçün mahnı oxuma prosesi, musiqi məzmununu ifadə vasitəsi kimi musiqidə olan ideya və duyğu aləminə daxil olmaq və öz dinləyicilərini ona cəlb etmək üçün bir imkandır. Bütövlüklə təhsil məsələsi bilavasitə vokal-xor repertuarının öyrətmə-ifa prosesində həyata keçirilir və nəzəri, praktiki biliklərin, bacarıqların və vərdişlərin optimal qarşılıqlı əlaqəsi onun müvəffəqiyyətlə yerinə yetirilməsini təmin edir.

Musiqi tərbiyəsi bilavasitə şəxsiyyətin mənəvi cəhətdən yaranmasına və inkişafına təsir edir. Mənəviyyat kateqoriyası müxtəlif mütəfəkkirlərlə cürbəcür izah olunur. Onun quruluşu müxtəlif məktəblərdə və istiqamətlərdə eyni şərh edilmir. Mənəviyyat şəxsiyyətin daxilində psixi, intellektual və emosionallığın birləşməsi kimi çıxış edir və özündə əsl yüksək mədəniyyəti və əxlaqi-etik, mənəvi keyfiyyətləri birləşdirir. Məhz musiqinin mənəviyyatın inkişafı üçün daha münasib, əlverişli şərait yaratmasını təsdiq etmək üçün bütün əsaslar var. İncəsənətin o biri növlərindən fərqlənərək, musiqi konkret

reallığı çox az dərəcədə təmsil edir; onun əsas mətləbi sözlə deyilməsi mümkün olmayan qəlbin vəziyyətindən ibarətdir.

Musiqinin məzmunu insan həyəcanının dərinliyinə daxil olmaqla müəyyən edilir; bunun sayəsində musiqi incəsənətin başqa növlərində olmayan, insanın mənəvi həyatını dərk etmə imkanlarına malikdir. Bu keyfiyyətlərə görə musiqi insana təmizləyici təsir edir, mənəvi gücünü yüksəldir və formalaşdırır.

Xorun iştirakçılarının musiqi tərbiyə prosesinin ardıcıl, sistematik və məqsədəuyğun həyata keçirilməsi xorun rəhbəri üçün vacibdir.

Musiqi tərbiyə prosesinin məqsədi – musiqi incəsənətinin köməyi ilə şəxsiyyətin mənəvi və əxlaq mədəniyyətinin formalaşmasıdır. "Musiqi tərbiyəsi – musiqi incəsənətinin vasitəsi ilə məktəblilərin tərbiyəsidir, yəni, şəxsiyyətin empasiya (başqaların dərdinə şərik olmaq) təsəvvür, zəhmətkeşlik, gözəlliyə olan ehtiyac kimi müsbət keyfiyyətlərin yaranmasına köməkdir" [4].

Xor kollektivində musiqi tərbiyəsi - qarşılıqlı təsir, bilik və qarşılıqlı tərbiyə yaradan dərin yaradıcı prosesdir. Təcrübə göstərir ki. eyni tərbiyə vasitəsi bir şəraitdə şagirdə güclü, başqa şəraitdə isə – cüzi təsir edir. Çox vaxt musiqi-estetik meyarlar arasında, xorda və ailədə, xor iştirakçıların özlərinin zövqü və marağı arasında uyğunsuzluqlar yaranır. Bu ziddiyyətin həll edilməsində xormeysterin rolu əvəzedilməzdir: təlimin ən müasir texniki vasitələri belə, onun mənəvi və əxlaqi təsirini əvəz edə bilməz, çünki müəllim-xormeyster şəxsən xorun iştirakçıları ilə canlı ünsiyyətdədir. Demokratizm, humanizm və yaradıcı azadlıq prinsiplərinə əsaslanan xor rəhbərinin şəxsiyyəti, onun peşəkar ustalığı, təşkiledici və aparıcı rolu – musiqi tərbiyə prosesinin effektivliyinin həlledici və vacib şərtidir. Kollektivdə xorun rəhbəri iştirakçılara müsbət təsir etməli və elə bir mövqe tutmalıdır ki. onlar bir-biri ilə dost və həmfikir olsun. "Musiqi tərbiyə prosesi əsasən o vaxt mükəmməl olur ki, nə vaxt ki o, tərbiyəçinin və tərbiyə edənlərin mənəvi dünyalarının həmrəyliyinə gətirib çıxarır... Mənəvi birlik müasir musiqi tərbiyəsinin müvəffəqiyyətinə olan açardır" [4].

Musiqi tərbiyəsinin effekti şagirdə qarşı təsirin gücündən və məktəblilərin öz aralarında olan münasibətdən asılıdır. Xor kollektivi yaradıcı birlik kimi baş tutubsa. onun təzə gələn iştirakçının şəxsiyyətinə təsiri daha güclü və xeyli tez əmələ gəlir. Yoldaşlar, həmyaşıdlar bir-birini tərbiyə etdikdə, musiqi tərbiyəsinin məzmunu və məqsədi nəinki tez. hətta çətinlik çəkmədən qavranır və qarşılıqlı musiqi tərbiyə prosesi xüsusilə effektiv olur.

Uşaq xoru ilə işdə uzunmüddətli təcrübə göstərir ki, müəllim-xormeyster öz tərbiyə məqsəd və məsələləri haqda açıq elan etməməli, diktə ya da zorla qəbul etdirməməlidir. Müəllim-xormeyster təkcə bir sahədə mütəxəssis olmamalıdır. O, həm dirijor, həm nəzəriyyəçi, həm də hər hansı bir alətdə çalmağı bacaran ifaçı olmalıdır, elə ki, lazım olan vaxt uşaqların diqqətini müxtəlif istiqamətə yönəltsin. Bu çox çətin iş olsa da, lakin hədsiz dərəcədə maraqlıdır.

Müəllim-xormeyster məşqlərdə elə şərait yaratmalıdır ki, xorun iştirakçısı dərsin hər hansı bir elementinə aktiv və fərdi yanaşsın, bu da əsl musiqi tərbiyəsinin rəhnidir və bununla yanaşı, şəxsiyyətin yaradıcı formalaşmasıdır.

Beləliklə, musiqi tərbiyəsinin xorla oxuma prosesində rolu və əhəmiyyəti böyükdür. Xorla oxuma məktəblilərin təhsil və tərbiyəsinin bütün sahələrinə daxil olur və onların mənəvi dünyasının formalaşması üçün əvəzedilməz vasitədir. Həmçinin, o, müxtəlif şəxsiyyətləri birləşdirərək, öz təbiəti ilə musiqi-estetik qarşılıqlı təsirin, qarşılıqlı tərbiyənin, qarşılıqlı maarifin unikal formasıdır.

Çoxillik pedaqoji təcrübə göstərir ki, müəllim-xormeysterin işi çox vaxt birtərəfli xarakter daşıyır. Diqqət əsasən ifa olunan repertuarın texniki öyrənilməsinə yönəldilir, musiqi materialın intellektual və emosional düşüncələr ilə bağlı bütün məsələlər dərk olunmamış qalır. Təcrübədə çox vaxt müşahidə edirik ki, xormeyster texniki cəhətdən az, çox hazırlıqlı olan xor kollektivi ilə işlədikdə, kifayət qədər inkişaf etməmiş musiqi düşüncəsi, intonasiya qavrama vərdişlərinin olmaması, musiqi materialını təhlil və sintez etməyi bacarmamaqları ilə rastlaşır.

Təcrübəli pedaqoq və metodistlər xor kollektivləri ilə işlədikdə, onun intellektual inkişafının əhəmiyyətinə xüsusi diqqət yetirmişdilər.

Pedaqoq-xormeyster üçün çox vacib məsələdir ki, uşaqlar hərtərəfli savad alsınlar, çoxlu kitab oxusunlar, musiqi dinləsinlər, vaxtaşırı teatr və muzeylərə getsinlər, maraqlı insanlarla ünsiyyətdə olsunlar. Əsas məsələ – təkcə "yaxşı oxumaq" deyil, xor ifaçılığının fərdi üsulu təkmilləşdirilməlidir. Xor şəxsən özünü ilhamlı, səmimi, bədii şərhçi kimi göstərməlidir, elə ki, onun artistik təsirinin gücü və zənginliyi hiss olunmalıdır. Musiqi düşüncəsinin və intellektin effektiv inkişafı üçün vacibdir ki, mahnı repertuarın öyrənmə prosesində, xor kollektivinin işi mexaniki yox, şüurlu surətdə, mənəvi cəhətdən yaradıcı, musiqi şüurun və diqqətin, təşəbbüsün və fantaziyanın aktivliyi şəraitində keçirilsin.

Musiqi düşüncəsini inkişaf edən musiqi əsəri üzərində məhz şüurlu iş, ifaçıya incəsənət səviyyəsinə yüksəlməyə kömək edir. Oxuyanların musiqi düşüncəsini tədricən inkişaf edərək, xorun rəhbəri uşaqları, metronom, dinamika, forma, lad, melodiya, harmoniya, polifoniya kimi musiqi ifadəsinin müxtəlif vasitələri ilə tanış edir. Müəllim- xormeyster onları musiqi materialının məntiqi təşkilini, ən sadədən mürəkkəbə qədər dərk etməyi, burada oxşarlığı və fərqi tapmağı, təhlil və sintez etməyi öyrədir, başqa sözlərlə desək, onların musiqi intellektini təkmilləşdirir, daha yüksək inkişaf səviyyəsinə qaldırır.

Üç əsas didaktik funksiyanın – tərbiyə, təhsil və inkişafın vəhdəti və qarşılıqlı əlaqəsinə nail olunması problemi – uşaqların musiqi təliminin əsas məqsədi və xor kollektivinin rəhbərinin bütün pedaqoji işinin əsasıdır. Xor kollektivində, müəllim-xormeysterin həyata keçirdiyi musiqi təlimi əzəldən

xorun iştirakçılarının musiqi inkişafının və tərbiyəsinin aparıcı amilidir. Bu prosesin effektivliyi və keyfiyyəti üç funksiyanın – tərbiyə, təhsil və inkişafın vəhdəti və qarşılıqlı əlaqəsi ilə müəyyən edilir.

Öz aralarında aktiv qarşılıqlı əlaqədə olaraq, təlim aparıcı rol oynayır, tərbiyə və inkişafı öz arxasınca aparır, musiqi inkişafı və musiqi tərbiyəsi isə musiqi təliminin imkanlarını genişləndirir.

Xorla oxuma prosesində müəyyən edilmiş vacib didaktik əsasların məzmununu və mahiyyətini həyata keçirərək, pedaqoq-xormeyster bütövlüklə məktəblilərin hərtərəfli musiqi mədəniyyətinin formalaşmasının əsas məsələsini həll edir.

Məqalənin aktuallığı. Təhsil və tərbiyə məsələlərin qarşılıqlı əlaqəsinə əsaslanmış didaktik yanaşma xor kollektivinin ifaçılıq mədəniyyətinə, səhnə artistliyinə və peşəkar ustalığının yüksəlişinə effektiv təsir edir və yüksək xor ifaçılıq incəsənətinin yüksək səviyyəsinə yaxınlaşmağa kömək edir.

ƏDƏBİYYAT

1. Əliyeva F.Ş. Azərbaycan musiqisində üslub axtarışları. B.: Elm və həyat, 1996
2. İsmayılova Q.A. Müslüm Maqomayev. Bakı: Yazıçı, 1985
3. Mirzəyeva N. "Xorşünaslıq" dərslik. B., 2007
4. Əliyev Y. "Musiqi dərslərində nəğmə" M.: Владос-Пресс, 2005
5. Məmmədova L. Azərbaycan xor mədəniyyəti. B., 2010

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.05.2026
Məqalənin çapa qəbul olunma tarixi: 14.05.2026
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.